"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# XARİCİ TİCARƏTİN İQTİSADİ ARTIMA TƏSİRİ

№ 1(6)-2023, səh. 43-54

Vüsalə CƏFƏROVA,
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzinin
Strateji planlaşdırma şöbəsinin
baş məsləhətçisi

vusala.jafarova@ereforms.gov.az

# Xarici ticarətin iqtisadi artıma təsiri

Vüsalə CƏFƏROVA,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin
Strateji planlaşdırma şöbəsinin baş məsləhətçisi

**XÜLASƏ**

Ticarətə açıqlıq bir ölkədə istehsal amillərinin mövcudluğunu artırır və bununla da ümumi amil məhsuldarlığının daha da yüksəlməsinə səbəb olur. Həmçinin aparılan araşdırmalarda potensial ÜDM-in artım tempi ticarətə açıq ölkələrdə daha sürətli olduğu müşahidə edilmişdir. Qeyd edilənlərlə yanaşı, xarici ticarət həm də riskləri özündə ehtiva edir və ticarətə açıq ölkələr bu reallığı nəzərə almalıdırlar. Ümumilikdə götürdükdə, xarici ticarətlə bağlı aparılan təhlillərin nəticələri ticari açıqlığın gətirdiyi faydaların risklərdən daha çox olduğunu göstərir. Bu məqalədə də ticari açıqlığın beş faydası, eyni zamanda cari hesabın profisit və ya kəsir məsələləri təhlil olunur. Həmçinin məqalədə xarici ticarət əlaqələrinin genişlənməsinin iqtisadi artıma təsirləri qiymətləndirilir və ixracın rəqabətqabiliyyətinin artırılması ilə bağlı təklilər verilir.

***Açar sözlər**: İqtisadi artım, ÜDM, ixrac, idxal, cari hesab balansı.*

***JEL kodu:** F10; F13; F19*

## GİRİŞ

Ölkə iqtisadiyyatının qlobal iqtisadiyyata inteqrasiyası səmərəliliyi artıra və resurs potensialını genişləndirə bilər. Həmçinin əmtəə ticarəti məhsuldarlığı və bazara giriş amillərinin artırır. Aktivlərin ticarəti isə diversifikasiya sayəsində riskləri və istehlak tələbini sabit saxlamaga kömək edir. Bununla da orta müddətli dövrdə transsərhəd mübadilə potensial ÜDM artımını təmin edə bilər. Ümumiyyətlə, dünya iqtisadiyyatına inteqrasiya ölkələr üçün həm də yoxsulluğun azaldılması üçün güclü bir vasitədir. Son 20 ildə dünya ticarətinin artımı ildə orta hesabla 6 faiz təşkil edib və bu da dünya istehsalından iki dəfə yüksəkdir. Uzun müddətdir ki, ticarət iqtisadi artımın drayveri rolunu oynayır. 1947-ci ildə Tariflər və Ticarət üzrə Baş Sazişi (GATT) yaradılan vaxtdan etibarən dünya ticarətinin inkişafı istiqamətində çox iş görülüb. 1994-cü ildə başa çatan "Uruqvay Raundu" adlanır çoxtərəfli ticarət sazişlərinin böyüyən sistemini idarə etməyə üçün Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaradılmasına səbəb oldu (1). ÜTT-nin yaradılmaısnın isə iqtisadi qloballaşmaya özünəməxsus töhfəsi oldu və iqtisadi qloballaşma prosesi inkişaf etməkdə olan ölkələr üçün faydalı olmağa başladı. Bu məqalədə də xarici ticarətin iqtisadi artıma təsiri ilə bağlı təhlil aparılmış və müvafiq təkliflər formalaşdırılmışdır.

## QLOBAL TİCARƏTDƏ LİBERALLAŞMA SİYASƏTLƏRİ VƏ İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRƏ TƏSİRİ

Qlobal iqtisadiyyatın inteqrasiyası bütün dünyada həyat səviyyəsini yüksəlməsinə səbəb olub və inkişaf etməkdə olan ölkələrin əksəriyyəti bu rifahdan faydalanıb. Belə ki, 1970-ci illərin əvvəllərində dünya ticarətinin təxminən dörddə biri, indi isə üçdə biri inkişaf etməkdə olan ölkələrin payına düşür.

Bir çox inkişaf etməkdə olan ölkələr ənənəvi əmtəə ixracına nisbətən istehsal və xidmətlərin ixracını əhəmiyyətli dərəcədə artırıb. Belə ki, istehsal sənayesi inkişaf etməkdə olan ölkələrin ixracının 80 faizinə qədər artıb. Üstəlik, inkişaf etməkdə olan ölkələr arasında ticarət sürətlə artıb və onların ixracının 40 faizi hazırda digər inkişaf etməkdə olan ölkələrlə aparılır (2).

Lakin son onilliklərdə inteqrasiyanın inkişafı qeyri-bərabər olub. Asiyanın bir sıra inkişaf etməkdə olan ölkələri və daha az dərəcədə Latın Amerikası üçün çox təsir edici amil olub. Bu ölkələr inkişaf etməkdə olan ölkələrə birbaşa xarici investisiyaların böyük hissəsinin cəlb edilməsinə kömək edərək qlobal ticarətdə iştirak etməklə uğur qazanıblar. Çin və Hindistana kimi belə ölkələr ticarətin liberallaşdırılmasını və digər bazar yönümlü islahatları

mənimsəməklə bu uğura nail olub. Həmçinin 1970-ci illərə qədər kasıb hesab olunan olan Koreya və Sinqapur Asiyada yüksək gəlirli ölkələrə çevrilib.

Lakin Afrika və Yaxın Şərqin bəzi ölkələrində tərəqqi daha az sürətli olmuşdur. Ən yoxsul ölkələr ticarətə olan maneələrini azaltmamaları səbəbindən dünya ticarətindəki paylarının əhəmiyyətli dərəcədə azalması və daha da marjinal həddə olması riski ilə üzləşiblər. Təxminən 75 sayda inkişaf etməkdə olan və keçid iqtisadiyyatına malik olan ölkələr və bütün zəif inkişaf etmiş ölkələr bu ölkə qrupuna aiddir. Uğurlu inteqrasiya etmiş ölkələrdən fərqli olaraq, bu ölkələr ənənəvi malların istehsalı və ixracından asılı olaraq qalmaqda davam ediblər. Buna səbəb ölkə daxili struktur problemləri və zəif siyasət çərçivələri və institutlarının olmasıdır.

## TİCARƏTİN LİBERALLAŞDIRILMASININ ÖLKƏ ÜÇÜN FAYDALARI

İqtisadiyyatı dünyanın qalan hissəsi ilə ticarət və investisiya üçün açıq edən siyasətlər davamlı iqtisadi artım üçün zəruridir. Bununla bağlı sübutlar son onilliklərdə kifayət qədər mövcuddur belə ki, heç bir ölkə dünyanın qalan hissəsinə açıq olmadan həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəldilməsi baxımından iqtisadi uğur əldə etməyib. Əksinə, ticarətin açılması və xüsusilə birbaşa xarici investisiyaların açılması son 20 ildə orta idxal tarifinin 30 faizdən 10 faizə endirməklə Şərqi Asiyanın iqtisadi uğurunun mühüm elementi olmuşdur (3).

Bir çox inkişaf etməkdə olan ölkələr iqtisadiyyatlarını qlobal iqtisadiyyata açmaqla müəyyən məhsulların istehsalında rəqabət üstünlükləri yaratmağa nail ola biliblər. Dünya Bankının “yeni qloballaşdırıcılar” kimi müəyyən etdiyi bu ölkələrdə 1993-1998-ci illər ərzində mütləq yoxsulluq içində olan insanların sayı 14 faiz azalmışdır. Bu da 120 milyondan çox insan sayı deməkdir (4).

Qlobal iqtisadi inteqrasiyaya yönümlü ölkələrin iqtisadiyyatı qapalı ölkələrdən daha sürətli iqtisadi artıma meylli olduğuna dair kifayət qədər sübutlar var. Bir nəticə ondan ibarətdir ki, ticarətin liberallaşdırılmasının faydaları xərcləri 10 dəfədən çox üstələyə bilər. Hindistan, Vyetnam və Uqanda da daxil olmaqla, son illərdə iqtisadiyyatları daha sürətli inkişaf və yoxsulluğun daha çox azaldılmasına nail olub. Orta hesabla, 1980-ci illərdə tarifləri kəskin endirən inkişaf etməkdə olan ölkələr 1990-cı illərdə bunu etməyənlərlə müqayisədə daha sürətli iqtisadi artıma malik oldular (5).

Sərbəst ticarət ən çox əhalinin yoxsul təbəqəsi faydalanır. Üstəlik, sərbəst ticarət nəticəsində yaranan artım yoxsulların gəlirlərini bütövlükdə əhalinin gəlirləri ilə təxminən eyni nisbətdə artırmağa meyilli olmaqla ixtisassız işçilər üçün yeni iş yerləri yaradır və onları orta təbəqəyə yüksəldir. Bütövlükdə, 1990-cı ildən bəri ölkələr arasında bərabərsizlik azalmaqdadır. Bu da qismən ticarətin liberallaşdırılması nəticəsində inkişaf etməkdə olan ölkələrdə daha sürətli iqtisadi artımı əks etdirir.

Ticarət maneələrinin aradan qaldırılmasından əldə ediləcək potensial gəlirlər əhəmiyyətli paya malikdir. Malların ticarəti üzrə bütün maneələrin aradan qaldırılmasından əldə edilən qazancları ildə təxminləri 250 milyard ABŞ dolları ilə 680 milyard ABŞ dolları arasında dəyişir. Bu qazancların təxminən üçdə ikisi sənaye ölkələrinin payına düşəcəyi gözlənilir. Lakin inkişaf etməkdə olan ölkələrə yığılan məbləğ onların hazırda aldıqları faydadan iki dəfə çox olacağı hesablanıb. Üstəlik, inkişaf etməkdə olan ölkələr qlobal ticarətin liberallaşdırılmasından ÜDM-də payı göstəricisi ilə kimi sənaye ölkələri ilə müqayisədə daha çox qazanacaqlar, çünki onların iqtisadiyyatları daha yüksək səviyyədə qorunur və daha yüksək maneələrlə üzləşirlər (6).

Digər ölkələrin bazarlarına çıxışın asanlaşdırılmasının faydaları olsa da, ölkələr ən çox öz bazarlarının liberallaşdırılmasından faydalanır. Sənaye ölkələri üçün əsas fayda onların kənd təsərrüfatı bazarlarının liberallaşdırılmasından əldə ediləcək. İnkişaf etməkdə olan ölkələr istehsalın və kənd təsərrüfatının liberallaşdırılmasından təxminən eyni dərəcədə qazanacaqları gözlənilir. Aşağı gəlirli ölkələr qrupu, iqtisadiyyatlarında kənd təsərrüfatının böyük əhəmiyyətinə görə sənaye ölkələrində kənd təsərrüfatının liberallaşdırılmasından ən çox qazanc əldə edəcək.

## BEYNƏLXALQ TİCARƏTİN LİBERALLAŞDIRILMASINI ZƏRURİ EDƏN AMİLLƏR

Son üç onillikdə daxili bazarın qorunması tədbirləri müəyyən dərəcədə azalsa da, həm sənaye ölkələri, həm də inkişaf etməkdə olan ölkələrdə, xüsusilə inkişaf etməkdə olan ölkələrin müqayisəli üstünlüyə malik olduğu kənd təsərrüfatı məhsulları və ya əmək tutumlu istehsal və xidmətlər (məsələn, tikinti) kimi sahələrdə əhəmiyyətli dərəcədə qalmaqdadır.

Sənaye ölkələri kənd təsərrüfatında yüksək rüsumlar, o cümlədən tarif pikləri (15 faizdən yuxarı tariflər), tariflərin yüksəldilməsi və məhdudlaşdırıcı tarif kvotaları (məbləğə qoyulan məhdudiyyətlər) vasitəsilə kənd təsərrüfatını qorumaq siyasətini saxlayırlar. Kənd təsərrüfatını qorumaq üzrə olan tariflərin orta həddi istehsal sahəsi ilə müqayisədə təxminən doqquz dəfə yüksəkdir. Bundan əlavə, sənaye ölkələrində kənd təsərrüfatına ayrılan subsidiyalar Afrikanın ümumi ÜDM-nin 2/3-nə bərabər olmaqla dünya qiymətlərini aşağı salır və bazarları qabaqlamaqla inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatı sektorlarını və ixracatını zəiflədir. Məsələn, Avropa Komissiyası şəkərin avropalı fermerlər üçün sərfəli olması üçün ildə 2,7 milyard avro xərcləyir, eyni zamanda tropik şəkərin ucuz idxalını dayandırır (7).

Sənaye ölkələrində istehsal sektorunun qorunması tədbirləri isə ümumiyyətlə aşağıdır, lakin inkişaf etməkdə olan ölkələrin istehsal etdiyi bir çox əmək tutumlu məhsullar üzrə yüksək olaraq qalır. Məsələn, orta hesabla cəmi 5 faiz idxal rüsumuna malik olan ABŞ-da 300-ə yaxın fərdi məhsul üzrə pik tarif həddləri vardır. Bunlar əsasən toxuculuq və geyim məhsullarına aiddir ki, bu da ABŞ-ın ən yoxsul ölkələrdən hər il idxal etdiyi 1 milyard dolların 90 faizini təşkil edir və bu rəqəm idxal kvotaları və tariflər tərəfindən saxlanılır. Digər əmək tutumlu istehsal müəssisələri də qeyri-mütənasib olaraq tariflərin yüksəldilməsinə məruz qalır ki, bu da ixracın daha yüksək əlavə dəyərli məhsullara doğru şaxələnməsinə mane olur.

Bir çox inkişaf etməkdə olan ölkələrin özlərində yüksək tariflər var. Onların idxal etdikləri sənaye məhsullarına tətbiq etdikləri tariflər orta hesabla sənaye ölkələrininkindən üç-dörd dəfə yüksəkdir və kənd təsərrüfatının tarifləri sənaye məhsullarından daha da yüksək həddədir (18 faiz) (8).

Ticarətə əngəl törədən qeyri-ənənəvi tədbirlərin kəmiyyətini müəyyənləşdirmək və qiymətləndirmək daha çətindir, lakin onlar ənənəvi tariflərin qorunması və idxal kvotası kimi maneələr kimi daha əhəmiyyətli dərəcədə təsirə malikdir. Antidempinq tədbirləri həm sənaye, həm də inkişaf etməkdə olan ölkələrdə artmaqdadır, lakin inkişaf etməkdə olan ölkələr qeyri-mütənasib şəkildə tətbiq edirlər. İdxalın texniki və sanitar standartlara uyğun olmasını tələb edən qaydalar digər əsas maneə hesab olunur və ixracatçılara əlavə xərclər qoyurlar ki bu xərclər də nəticə etibarilə istehlakçıya ötürülür. Məsələn, Avropa Birliyinin aflotoksinlərlə bağlı qaydaları Afrikaya dənli bitkilər, qurudulmuş meyvələr və qoz-fındıq ixracına görə 1,3 milyard dollar əlavə xərc yaradır.

Müxtəlif səbəblərə görə yoxsul ölkələr üçün imtiyazlı giriş sxemləri bu ölkələr üçün bazara çıxışın artırılmasında böyük təsir edə bilməyib. Məsələn, Avropa Birliyi ən az inkişaf etmiş ölkələrə 900-dən çox məhsul üçün rüsum və kvotasız giriş imkanı verən "Silahdan başqa hər məhsul" təklifini qəbul etməklə, düyü, şəkər və banan idxalına məhdudiyyətlər 2009-cu ilə qədər aradan qaldırıldı. Kanada, Yaponiya və digərləri də ən yoxsul ölkələrə bir sıra istehsal malları üçün bazara daha əlverişli çıxış imkanı verdilər. Bu cür sxemlər tez-tez ən yoxsul ölkələrdə ixracatçıları maraqlandıran yüksək dərəcədə qorunan məhsullara tətbiq edilmir. Eyni zamanda çox vaxt mürəkkəb, qeyri-şəffaf olmaqla bazara çıxış əldə edildikdən sonra onu yenidən məhdudlaşdırır.

Ticarət potensialını iqtisadi artım və inkişaf üçün hərəkətverici qüvvə kimi reallaşdırmaq üçün həm sənaye, həm də inkişaf etməkdə olan ölkələrdən əlavə liberallaşma tədbirləri tələb edir. İnkişaf etməkdə olan ölkələrin, xüsusən də ən yoxsul ölkələrin üzləşdiyi ticarət maneələrini aradan qaldırmaq üçün sənaye ölkələrinin və daha geniş şəkildə beynəlxalq ictimaiyyətin daha çox səyləri tələb olunur. Çoxlifli Saziş (Multi Fiber Arrangement-MFA) əsasında qoyulan kvotaların 2005-ci ilə qədər ləğv edilməsinə baxmayaraq, tekstil, geyim və kənd təsərrüfatının daha sürətli liberallaşdırılması xüsusilə vacib olaraq qalır. Qeyd edilməlidir ki, Multi Fiber Arrangement (MFA) 1974-cü ildən 1994-cü ilə qədər dünya tekstil və tikiş ticarətini

tənzimləyərək, inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələrə ixrac edə biləcəyi məbləğə kvotalar tətbiq edib. Onun varisi olan Tekstil və Geyim Sazişinin (ATC) müddəti 2005-ci il yanvarın 1-də başa çatıb. Eynilə, kənd təsərrüfatı və istehsalatda tariflərin pik həddləri və eskalasiyanın aradan qaldırılması davam etdirilməlidir. Öz növbəsində, inkişaf etməkdə olan ölkələr öz ticarət maneələrini daha da azaltmaq üçün davamlı səy göstərsələr, öz iqtisadiyyatlarını (və ticarət tərəfdaşlarının) gücləndirməyə nail ola bilərlər (9).

Ən yoxsul inkişaf etməkdə olan ölkələr üçün bazara çıxış imkanlarının genişləndirilməsi onları inkişaf və yoxsulluğun azaldılması üçün ticarətdən istifadə etmək vasitələri ilə təmin edərdi. Ən yoxsul ölkələrə dünya bazarlarına rüsumsuz və kvotasız çıxışın təklif edilməsi bu ölkələrə dünyanın qalan hissəsi üçün az xərclə böyük fayda yarada bilər. Aİ və bəzi digər ölkələrin bazarı açmaqla bağlı son təşəbbüsləri bu baxımdan mühüm addımdır. Tam effektiv olmaq üçün belə çıxış daimi olmalı, bütün mallara şamil edilməli və sadə, şəffaf mənşə qaydaları ilə müşayiət olunmalıdır. Bu, ən yoxsul ölkələrə ölkə daxili islahatlara davam etmək və borcdan azad olmaq və yardım axınından səmərəli istifadə etmək üçün imkan yaradardı.

1999-cu ildə Sietldə keçirilən ÜTT konfransında çoxtərəfli ticarət danışıqlarının yeni raundunun başlanmaması beynəlxalq ticarət sistemi üçün uğursuz oldu. Bu cür geniş miqyaslı çoxtərəfli danışıqlar xüsusilə vacibdir, çünki ölkələrə digər ölkələr tərəfindən bazarın açılması və öz ixracatçıları üçün faydalar əldə etmək imkanı verir. Bu imkan ölkələrə öz bazarlarını açmaq və müdafiədən faydalanan köklü maraqların müqavimətini aradan qaldırmaq üçün əlavə stimul verir. Beləliklə, danışıqlar prosesinin və ticarətin liberallaşdırılması tədbirləri paketlərinin bütün iştirakçı ölkələrə fayda verəcəyi təmin edilir.

Danışıqların yeni mərhələsi qlobal artım perspektivlərini yüksəltmətlə və beynəlxalq ticarət sistemini gücləndirməyə şərait yaradır. Dünya miqyaslı ticarət raundları qloballaşmanın hamının xeyrinə işləməsi məqsədinə çatmaq üçün mühüm instrument rolunu oynayır.

## ƏDƏBİYYAT İCMALI

Beynəlxalq ticarətdə əhəmiyyət kəsb edən amil ticarətin liberallaşdırılmasının iqtisadi artıma necə təsir etməsidir. Vamvakidis və Clemens və Williamsona görə, iqtisadi artım və ticarətin liberallaşdırılması arasında əlaqə müsbət və ya mənfi ola bilər. Tədqiqatlar bu əlaqənin 1920-1940-cı illər arasında mənfi, 1940-cı ildən müsbət; 1869-1913-cü illər arasında mənfi, lakin 1919-cu ildən müsbət olduğunu göstərir (10).

Son empirik və nəzəri tədqiqatlarda iqtisadiyyatda firma heterojenliyinin rolu araşdırılıb. Bernard and Jensen və Bernard et al. firma heterojenliyinin beynəlxalq ticarətdə mühüm rol oynadığını təqdim etdi. Eyni sənayedə fərqli firmalar fərqli məhsuldarlığa malikdirlər və ixrac edən firmaların məhsuldarlığı isə ixrac etməyən firmaların məhsuldarlığı ilə müqayisədə ciddi şəkildə yüksəkdir. Nəhayət, ticarətin liberallaşdırılması resursların ixrac etməyən firmalardan ixracatçı firmalara yenidən bölüşdürülməsinə gətirib çıxarır və beləliklə, sənaye səviyyəsində məhsuldarlıq artırılır. Melitz firma heterojenliyi ilə sadə inhisarçı rəqabət modelini hazlayıb təqdim edib. Bundan əlavə, Gambardella et al. göstərir ki, Avropa patentinin dəyərlərinin paylanması çox əyridir və Scherer də 1995-ci ildə Alman patentinin dəyəri log-normal və pareto paylanmasının qarışığı olmasını irəli sürdü. Beləliklə, Almaniya və ABŞ-da ən yaxşı 10% patentlərin 80% -dən çox töhfə verdiyini göstərir. Ticarətin liberallaşdırılmasının Tədqiqat və İnkişaf (R &D) fəaliyyətləri vasitəsilə iqtisadi artıma təsirlərini araşdıran zaman firmalar arasında heterojenliyin rolu nəzərə alınmalıdır. 2000-ci ildən 2016-cı ilə qədər Koreyada ÜDM-in faizi kimi ticarətin liberallaşdırılması ilə əsas tədqiqat xərcləri arasındakı əlaqənin olması buna sübutdur (11).

**Qrafik 1. 2000-ci ildən 2016-cı ilə qədər Koreyada ÜDM-in faizi kimi ticarətin liberallaşdırılması ilə Əsas Tədqiqat xərcləri arasında əlaqə**




Mənbə: Tokyo Center of OECD, 2010.

Yuxarıdakı qrafikdə üfüqi oxda ticarətin liberallaşdırılması ÜDM-ə nisbətən İxrac dəyəri və İdxal dəyəri kimi müəyyən edilir. ÜDM-in faizi kimi əsas tədqiqat xərcləri şaquli oxdadır (12).

## XARİCİ TİCARƏTİN İNKİŞAFININ FAYDALARI

Son 25 il ərzində yüz milyonlarla insan yoxsulluqdan qurtulub və uzunmüddətli durğunluqdan sonra onların gəlirləri inkişaf etmiş iqtisadiyyatlarda olanlarla eyni səviyyəyə çatmaq prosesindədir. Bu fakt iqtisadi inkişaf üçün açıqlığın faydasını bir daha sübut edir. Qlobal iqtisadiyyata inteqrasiya, eyni zamanda ölkə iqtisadiyyatına risklər də gətirir. Əgər iqtisadiyyat az sayda məhsul istehsalına malikdirsə, bu zaman ticarət axınlarında dəyişkənlik gözlənilləndir. Eyni zamanda qlobal inteqrasiya gəlir səviyyəsini yüksəltməklə yanaşı, onu daha da dəyişkən edir və bu mövzu açıqlığın riskləri bölməsində təhlil edilir.

Makroiqtisadi planlaşdırmanın əsas məqsədi qlobal inteqrasiyanı təmin etmək və onları dönməz hala gətirmək üçün bu dəyişkənliyə qarşı buferlər yaratmaqdan ibarətdir. Bunun üçün əsas vasitə adekvat xarici valyuta ehtiyatının olmasıdır. İnkişaf etməkdə olan ölkələrin əksəriyyəti son onilliklərdə böyük həcmdə xarici valyuta ehtiyatları yaratmağa nail ola biliblər. Bu məqsədlə ölkənin xarici valyuta ehtiyatlarının adekvatlığının qiymətləndirilməsi üçün praktiki qaydaları hazırlanıb qəbul edilir. Bu sahədə tədqiqatda beynəlxalq statistikaya nəzər salınır və xarici valyuta ehtiyatlarının mənbələri təhlil edilir.

Xarici valyutada olan borc öhdəliklərinin yerinə yetirmək üçün kifayət qədər xarici valyuta ehtiyatına malik olan iqtisadiyyat xarici borc ödəmələri üçün "likvid ölkə" hesab olunur. Xarici borcun ÜDM-ə nisbətinin artmadığı ölkələr xarici borcu ödəmə qabiliyyətli ölkə sayılır. İqtisadiyyatın xarici balansı xarici likvidlik və xarici ödəmə qabiliyyətinin eyni vaxtda vəziyyəti kimi müəyyən edir.

2008-2009-cu illərin qlobal tənəzzülü ticarətin liberallaşdırılması prosesini zəiflətdi və ölkələrin ticarət payları azalmağa başladı. Bu səbəbdən qloballaşma kövrək, lakin heç bir halda qaçılmaz bir proses olduğunu göstərdi. Qabaqcıl iqtisadiyyatların transsərhəd aktivləri 1970-2012-ci illər arasında ÜDM-in 25%-dən 250%-nə yüksəlmişdi. Bu on qat artım əmtəə ticarəti əmsallarında eyni dövrdəki üçqat artımı xeyli üstələyir. İnkişaf etməkdə olan ölkələrdə yüksək vasitəçilik xərcləri maliyyə inteqrasiyasını dayandırdı. Buna baxmayaraq, bu ölkələrdə transsərhəd aktivlərdə ÜDM-ə nisbətən üç dəfə artım müşahidə edildi (12).

Beynəlxalq aktivlərin kəskin artması 1980-1990-cı illərdə maliyyə bazarlarının

liberallaşdırılmasından sonra baş verdi. Əmtəə ticarətində olduğu kimi, 2008-2009-cu illərdəki qlobal tənəzzül maliyyə inteqrasiyasını da zəiflətdi. Qlobal maliyyə əmanətlərinin sərbəst axınına sənayesi qorununan ölkələr deyil, yüksək borc yükü olan dövlətlər müqavimət göstərdi. Bu dövlətlər daha çox, daxili əmanətlərin "mobilliyini" azaltmaqla bu vəsaitləri fiskal ehtiyaclara cəlb etməkdə maraqlıdırlar. Ticari açıqlıq iqtisadiyyatın resurs məhdudiyyətlərini bir neçə yolla aradan qaldırır və əsasən məhsuldarlığı və istehsal amillərinin mövcudluğunu artırır. Milli iqtisadiyyatlar son əlli il ərzində sürətli inteqrasiya prosesinə keçiblər və bu inkişaf əsasən iki sahə üzrə davam edib: malların ticarəti və maliyyə aktivlərinin ticarəti. İnteqrasiya prosesində malların ticarət birinci baş verdi (13).

Bir çox ölkələrdə xarici sektorun böyük həcmi onu göstərir ki, xarici sektorda disbalans ciddi qəbul edilməlidir. Bəzi iqtisadiyyatların ticarət həcmi ÜDM-dən artıqdır və xarici balansı qorumaq fiskal tarazlığı qorumaqdan ikiqat çətindir. Xarici balans həm də özəl sektor əməliyyatlarının balanslaşdırılmasını nəzərdə tutur və bu da siyasətin formalaşmasına yeni məhdudiyyətlər qoyur.

Qlobal inteqrasiya və xarici sektorun böyüməsi makroiqtisadi planlaşdırmanı əvvəlki dövrlərlə müqayisədə xeyli mürəkkəbləşdirib. Lakin nəzərə almaq lazimdır ki, dünya ilə iqtisadi inteqrasiya resurs məhdudiyyətlərini genişləndirmək üçün zəruri vasitədir. Birincisi, xarici sektorun tənzimləməsi açıqlığı qorumağa və ya mümkünsə, artırmağa xidmət etməlidir. Struktur islahatları kimi açıqlıq siyasəti də istehsal amillərinin mövcudluğunu və ümumi faktor məhsuldarlığını və potensial artımı artırır. Ticari açıqlığın beş spesifik faydası vardır ki, bu faydanın üçü əmtəə ticarətindən, biri aktivlərin ticarətindən, digər biri isə əmtəə və aktivlərin ticarətinin qarşılıqlı təsirindən yaranır.

## TİCARİ AÇIQLIĞIN RİSKLƏRİ VƏ XARİCİ SEKTORDA TARAZLIQ TƏDBİRLƏRİ

Xarici sektorda tarazlıq makroiqtisadi sabitliyin sütunlarından biridir. Xarici ödəmə qabiliyyəti ilə likvidliyin adekvatlığını əks etdirir və ölkəyə malların və aktivlərin beynəlxalq mübadiləsində iştirak etməyə və onun əhəmiyyətli faydalarından istifadə etməyə imkan verir. Ən əsası isə ticarətə açıqlıq bir ölkənin resurs məhdudiyyətini genişləndirməyə imkan yaradır. Əmək və kapitalın istehsal amillərinin mövcudluğunu artırır və bununla da ümumi amil məhsuldarlığının yüksəlməsinə səbəb olur. Ticarətə açıq olan ölkələrdə ümumiyyətlə potensial ÜDM artımının daha sürətli tempdə olduğu müşahidə olunur.

Ənənəvi nəzəriyyə bütün firmaların eyni olduğunu qəbul edirdi, lakin sübutlar ixrac edən firmaların xüsusi olduğunu göstərir. Bernard və başqaları tədqiqatlarında göstərir ki, 2000-ci ildə ABŞ ixracatının 96 faizi ABŞ firmalarının yalnız 0,4 faizinin payına düşür. İxrac edən firmalar daxili bazara yönəlmiş firmalara nisbətən daha böyük və daha məhsuldar olmaqla daha çox kapital və bacarıqlardan istifadə ediblər və yüksək maaş veriblər. İxracın yalnız ən məhsuldar firmaların mənimsəyə biləcəyi tələbkar bir fəaliyyət olduğu irəli sürülüb (14) .

Krugman modelinə görə, firmalar istehlakçıların üstünlüyünü qazanmaqla müəyyən bazar gücünə sahibdirlər. Bu, inhisarçı rəqabət yaradır ki, bu səbəbdən firmalar qiymətləri marjinal xərc yuxarı təyin edə bilirlər. Lakin ticari açıqlıq nəticəsində firmalar artıq rəqabət səbəbindən daha yüksək məhsuldarlıq aşağı marjinal xərclər təklif etməyə məcbur olur. Ən məhsuldar firma daha aşağı qiymət təyin edir və rəqiblərindən daha yüksək bazar payına malik olur və hətta daha yüksək qazanc əldə edir. Məhsuldarlıq firmaların mənfəətini artırır.

Məhsuldarlıq artımı ixraca əsaslanan artım strategiyasına dəstək verir. Cənubi Koreya və Çin öz inkişaf möcüzələrini qismən bu strategiyaya borcludurlar. Çili, Yaponiya və "Asiya pələngləri" buna nümunədir. Empirik tədqiqatlar müntəzəm olaraq açıqlığın bir ölkənin uzunmüddətli inkişaf potensialına müsbət təsiri olduğunu göstərir. 1980-2013-cü illər arasında 180 ölkədən olan müşahidələrdən istifadə etməklə göstərir ki, ixracda yüksək artım ÜDM-in yüksək artım tempinə səbəb olur (15).

Ticarətə açıqlıq bəzi inkişaf etməkdə olan ölkələrə daha böyük və daha mürəkkəb firmalar yaratmağa dəstək verib. Bu, inkişaf üçün çox vacibdir və daha təkmil maliyyə sistemi və maliyyə sahəsində toplanan qənaətlərinin daha yaxşı mobilləşdirilməsi üçün yol açır. Faktlar göstərir ki,

ticari açıqlığın "qızıl dövrü" Birinci Dünya Müharibəsi ilə qəfil başa çatdı. Münaqişə sərhədləri bağladı və ticarət həcmi üçdə iki azaldı. Qlobal inteqrasiya 1990-cı ildən başlayaraq sürətlə davam etməyə başladı və inkişaf etməkdə olan ölkələr gəlirlərini qabaqcıl iqtisadiyyatların nəzərən daha çox artıraraq faydalanıblar.

Dünya iqtisadiyyatı 1990-cı illərdən bəri bir neçə maliyyə bumu və tənəzzülü dövrünün şahidi olmuşdur. İlk belə dövr Skandinaviyada, ikincisi Meksika, Asiya, Rusiya, Braziliya və Argentinanın inkişaf etməkdə olan iqtisadiyyatlarında; üçüncüsü isə 2000-ci illərin sonunda ABŞ-ı əhatə edərək qlobal iqtisadiyyatı tənəzzülə sürüklədi. Ən son böhranlar silsiləsi 2010-cu illərin əvvəllərində Avro bölgəsində baş verdi (16).

Yunanıstan təcrübəsi maliyyə bumu və iflas dövrünü xüsusilə yaxşı göstərir, həmçinin struktur islahatları üçün müəyyən dərslər ehtiva edir. 1990-cı illərdə Yunanıstan yüksək inflyasiya və böyük maliyyə kəsirləri ilə yüklənməklə Avropa Birliyinin ən yoxsul üzvlərindən biri idi. Dövlət borcu ÜDM-in 100 faizini ötməklə iqtisadiyyat durğunluqda olmaqla inhisarçı bazarlardan və hökmran dövlətdən əziyyət çəkirdi. Yunanıstan həm də çox qapalı iqtisadiyyat idi, belə ki ixrac ÜDM-in 15 faizini təşkil edirdi, müqayisə üçün qeyd edilməlidir ki, Avropa İttifaqında bu göstərici təxminən 40 faizdir (17).

Yunanıstan 2001-ci ildə ümumi valyuta zonasına yalnız Avropanın qalan hissəsindən verilən siyasi dəstək və saxta fiskal rəqəmlər (18-ci fəslə bax) sayəsində nail oldu. Avropa İttifaqının 1993-cü ildə tətbiq edilən Vahid Bazarın "dörd azadlığı" malların və maliyyə aktivlərinin ticarətində maneələri faktiki olaraq aradan qaldırdı. Yüksək gəlirləri cəlb edən Yunanıstan, xüsusən də avro zonasına daxil olduqdan sonra böyük kapital axını əldə etdi. 1990-cı illərdə və 2000-ci illərin əvvəllərində daxilolmalar ÜDM-in orta hesabla 6 faizini təşkil etdi və cari hesabın kəsirinin genişlənməsini maliyyələşdirdi (18).

Eyni zamanda real faiz dərəcələrini 1995-ci ildəki 15 faizdən 2009-cu ildə 2 faizə endirə bildilər və bu daxili kreditin sürətlə genişlənməsinə təkan verdi. Lakin iqtisadiyyatın bütün sektorları borcla yükləndi. Real ifadədə hökumət 1997-2009-cu illər arasında borcunu iki dəfə, qeyri-maliyyə korporasiyaları üç dəfə, ev təsərrüfatları isə beş dəfə artırdı. Birgə borc nisbəti bu müddət ərzində ÜDM-in 200 faizindən 400 faizinə yüksəldi. Bu zaman kredit götürülən vəsaitlər hara yönəldiyi sualı ortaya çıxır. Bu vəsaitlər ilk növbədə hökumətin cari xərclərinə, tikintiyə və əmlak bazarının həddən artıq "qızmasına" yönəldir. Hökumətin cari xərcləri 1997-2009-cu illər arasında ÜDM-in 35 faizindən 50 faizə qədər artdı və buna əsasən pensiyalar və dövlət maaşlarının artırılması səbəb oldu.

Maraqlısı budur ki, kredit bumu məhsuldarlığı artıra bilmədi və 1990-cı illərdə 1,5 faiz artdıqdan sonra, ümumi faktor məhsuldarlığı 2005-ci ildən 2009-cu ilə qədər azaldı. Eyni zamanda Almaniyaya nisbətən əmək vahidinin məsrəfləri 50 faiz artdı və Yunanıstan ixracatını getdikcə daha rəqabətsiz etdi. Bununla da cari hesab kəsiri 2008-ci ildə ÜDM-in 15 faizinə çatdı. İqtisadi qeyri-sabitlik, istər ixrac dalğalanmaları, istərsə də maliyyə bumu - iflası dövrləri şəklində olsun, nisbi qiymətlərdə dəyişikliklər yaradır. Yunanıstanda kapital axını hökumət, tikinti və daşınmaz əmlak kimi qeyri-ticari sektorların nisbi qiymətini təxminən 20 faiz artırdı (19).

Yunanıstan nümunəsindən belə nəticəyə gəlmək olar ki, iqtisadi açıqlıq maliyyə bumu - iflası dövrlərinin tezliyini artırır. Maliyyə cəhətdən inteqrasiya olunmuş dünyada azad hərəkət edə əmanətlərin həcmi böyükdür və bu bankların vasitəçilik imkanlarını alt-üst edə bilər. Kapital axınındakı artımlar isə təhlükə problemlərinin olduğunu xəbər verir, kreditin sürətlə genişlənməsinə gətirib çıxarır və həddindən artıq riskə yol açır. Nəticədə vəsaitlərin düzgün bölüşdürülməməsi və potensial ÜDM artımının ləngiməsi baş verir (19).

Beləliklə, kredit bumları "öz məhvlərinin toxumlarını əkməyə" xidmət edir. Onlar maliyyə iflasına çevrilirlər, çünki banklar mahiyyət etibarilə qeyri-likvid qurumlardır. Potensial ÜDM artımı yavaşlayanda və investisiya layihələri özünü doğrultmayanda, bankların ölkədən "qaçışı" baş verə bilər. Xarici investorlar öz vəsaitlərini qəfil geri çəksələr, qəfil iflasa səbəb olar və əgər yerli investorlar da eyni bunu edərsə, kapitalın ölkədən "axını" baş verəcəkdir. Makroiqtisadi

planlaşdırma maliyyə buferlərini yaratmaqla bu prosesin baş verməsinin qarşısını alır və iqtisadiyyatı çətin dövrdən çıxarmaq üçün vaxt qazanmağa kömək edən universal amortizator instrumenti kimi xarici ehtiyatların tələb olunan səviyyədə olmasını təmin edir (20).

Hökumətlər iqtisadiyyatı cari hesab (ixrac) şoklarından qoruya bilmək üçün üç aylıq idxala ekvivalent minimum xarici ehtiyata saxlamaq tədbiri görürlər. Orta və yüksək gəlirli ölkələrdə maliyyə riskləri üstünlük təşkil edir. Qısamüddətli xarici borcun qəfil dayandırılması ödənişlər dalğasına və istehlakın qəfil və kəskin azalmasına səbəb ola bilər. Bu səbəbdən hökumətlər ən azı bir il ərzində ödəmə müddəti bitən xarici qısamüddətli borcları əhatə edən xarici ehtiyatlar ehtiyatını saxlamaqla iqtisadiyyatı qəfil dayanmaların vurduğu zərərdən qoruya bilər. Əgər yerli əmanətçilər öz maliyyə aktivlərinin dəyərindən ehtiyatlanarsa, kapital axımı zamanı bu aktivləri xaricə köçürə bilərlər. Nəzəri olaraq geniş pul kütləsinin bütün likvid aktivləri ölkəni tərk edə bilər. Hökumət isə geniş pul kütləsinin ən azı 20 faizini əhatə edən xarici ehtiyatlar saxlamaqla iqtisadiyyatı kapitalın axını nəticəsində yaranan zərərdən qoruya bilər (21).

## MƏZƏNNƏ TARAZLIĞININ EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

Ekonometrik yanaşma real məzənnənin tarazlığını demoqrafik, məhsuldarlığın artımı və makro siyasətin hazırkı durumu kimi əsas amillər vasitəsilə qiymətləndirir. Ən mühümləri orta müddətli real məzənnəyə təsir edən və tarazlığı müəyyən edən fundamental amillərdir. Nümunələrə əmək təklifi, məhsuldarlıq və ticarət şərtləri daxildir ki, bunlar da öz növbəsində ticarət tərəfdaşlarına nisbətən müəyyən edilir. Siyasət amilləri qısa müddətdə real məzənnəni dəyişməsinə səbəb olur. Bura faiz dərəcələri və büdcə xərcləri daxildir və onların təsiri yalnız müəyyən siyasət mövcud olduğu müddətdə davam edir. Gözləntilər isə real valyuta məzənnələrinin qısamüddətli dəyişkənliyini şərtləndirir.

Xarici valyuta ehtiyyatının dinamikasının tənliyi ticarət balansına düzəliş ehtiyacları barədə təxminlər verir. TNT modeli isə bundan istifadə etməklə real məzənnəyə düzəliş ehtiyaclarını müəyyən edir. Bununla belə, real məzənnə nisbi qiymətdir və siyasətçilər onu birbaşa idarə etmir. Real məzənnədə zəruri dəyişiklik birbaşa hökumətin nəzarəti altında olan nominal məzənnəyə təsir edə bilər. Bunun üçün biz valyuta məzənnəsinin "keçidini" (Pass-through -artan xərclərin satış qiymətinin üzərinə ötürülməsi) bilmək tələb olunur. Nominal məzənnənin artması adətən inflyasiyanın artmasına səbəb olur. Təxmini artım həmin keçid əmsalı ilə verilir. Daha yüksək keçid xarici tənzimləməni çətinləşdirir, çünki bu, nominal məzənnənin daha böyük artımını tələb edir. Yuxarıda qeyd olunanlar xarici sektor üçün əsas makroiqtisadi planlaşdırma prosedurunu əhatə edir (22).

## TİCARƏTİN TƏDQİQİ SAHƏSİNDƏ PROQNOZLAŞDIRILMA TƏNLİKLƏRİ

1930-cu ildən bəri olan tədqiqatlarda təxmini idxal və ixrac elastiklikləri hesablamaları aparılıb. Bu cür qiymətləndirmələr struktur ticarət tənlikləri adlanır və xarici sektor üçün bir çox proqnoz modellərinin əsasını təşkil edir. Ənənəvi ticarət tənlikləri adi ən kiçik kvadratlar (OLS) hesablamaları ilə qiymət və gəlir elastikliyini ölçməyə xidmət edir. Son dövrlərdə isə daha mürəkkəb kointeqrasiya texnologiyaları irəli sürülüb.

Empirik olaraq qiymət elastikliyini E-nin nisbi qiymətində bir faiz artım nəticəsində idxal kəmiyyətində CT-də faiz dəyişikliyi kimi müəyyən edə bilərik. Eynilə gəlir elastikliyi Y-nin gəlirinin real qiymətin bir faiz artması nəticəsində idxal kəmiyyətində CT-nin faiz dəyişməsidir. Qiymət və gəlir elastikliyini müvafiq olaraq $\varepsilon$ və $\eta$ ilə işarə olunur. Ən ümumi empirik tənlik real məzənnə və real ÜDM-in loqarifmlərində xətti idxal tələb funksiyasıdır:

$$1nCT = \alpha 0 - \varepsilon \cdot 1ne + \eta \cdot 1nY \quad (1)$$

Log-xətti əlaqə adi ən kiçik kvadratları (OLS) tətbiq etmək üçün əlverişlidir. Nəticədə $\varepsilon$ və $\eta$ əmsalları qiymət və gəlir elastikliklərinin birbaşa təxminləridir. Nəzəriyyəyə əsasən, qiymət elastikliyi mənfi, gəlir elastikliyi isə müsbət olmalıdır (23).

## GƏLİR ELASTİKLİKLƏRİNDƏ UZUNMÜDDƏTLİ FƏRQLƏR

Krugman müəyyən etdi ki, sürətlə inkişaf edən iqtisadiyyatlar çox vaxt yüksək ixrac və aşağı idxal elastikliyinin əlverişli birləşməsinə malikdir. Bunun əksinə, yavaş inkişaf edən iqtisadiyyatlar çox vaxt əlverişsiz birləşməyə malik idilər. Gəlir elastikliyi ölkələr arasında artım fərqlərini kompensasiya edib. Krugman bunu "45 dərəcə" qaydası adlandırdı: nisbi gəlir elastiklikləri və nisbi artım templəri 45 dərəcə diaqonal boyunca düzülür:

$$\eta X/\eta M \approx \hat{y}/\hat{y}^{*} \quad (2)$$

Dəyişən elastiklik uzun müddət ərzində ticarəti balanslaşdırmağa kömək edir. Sürətlə böyüyən iqtisadiyyatlarda isə həm ixrac, həm də idxal səviyyəsini sürətlə artırır. Yavaş inkişaf edən iqtisadiyyatlarda isə bu proses əksinədir. (24)

## MİNERAL EHTİYATLARIN XARİCİ BALANSA TƏSİRİ

Neft ehiyyatlarına malik olmaq ölkənin ticarət balansını yaxşılaşdırır və cari hesab həddini daha yüksək mövqeyə keçir. Neft yataqlarının tükənməsi isə bu həddi yenidən aşağı salır. Neft ticarət balansını yaxşılaşdıran və iqtisadiyyatı tarazlığa çevirən əlavə ixracat təmin edir. Digər faktorların dəyişməz qalması halında, ölkə cari əməliyyatlar hesabını profisitlə ilə icra edir və ehtiyatlar toplamağa başlayır və cari hesab həddi artmağa başlayır, xarici ehtiyatlar sürətlə toplanır və artan faiz gəliri cari hesabın profisitini genişləndirir. Neft yataqları tükəndiyi halda isə ticarət balansı müvafiq ixracı potensialını itirir. Nəticədə cari hesab xətti əvvəlki vəziyyətinə qayıdır. Ölkə öz mineral sərvətlərini xarici valyuta ehtiyatı ilə əvəz edir. Bu, faiz ödənişləri və dividendlər şəklində kapital gəliri axını verir.

Bununla neft hasil edən ölkə bütün mineral sərvətlərini saxlamağı bacarır. Ölkənin balansında neft hasilatı mineral aktivləri maliyyə aktivlərinə çevirir. Bu, özlüyündə iqtisadiyyatın ümumi xalis dəyərini artırmadığına görə neft sərvətinə qənaət edilməsi labüddür. Müvafiq investisiya strategiyası mineral sərvətlərin gəlirliliyini və beləliklə də xalis dəyəri artıra bilər. Neft sərvəti hasil edilməsə, torpağın altında qalmaqla gəlir və ya dividend gətirmir, xarici ehtiyatlara çevrilən neft sərvəti isə faiz gətirir. Ehtiyatlar sonradan fiziki kapitala çevrilə və iqtisadiyyatın istehsal qabiliyyətini artıra bilər. Kapitalın marjinal məhsulu milli sərvətin gəlirini daha da artırır.

Yekun olaraq, xarici sektor üçün standart proqnozlaşdırma modelinin ümumi modifikasiyası real məzənnə ilə ticarət balansı arasındakı əlaqəyə aiddir. Elastiklik yanaşması TNT modelinin idxal və ixrac tələb funksiyalarını empirik qiymətləndirmələrlə əvəz edir. Məsələn, ABŞ-ın xalis IIP-i həddi isə empirik tapmaca təəssüratı yaradır. ÜDM-in -30 faizində olmaq, -70 faizlik ümumi ticarət kəsirindən xeyli aşağı olan həddir. İlkin gəlir və qiymətləndirmə dəyişikliklərini əhatə edən xarici valyuta sərvətinin "maliyyə kanalı" instrumenti isə bunun izahını verir. Xarici aktivlərin gəlirləri xarici öhdəliklərdən daha yüksək olduğundan, ABŞ dünyanın ən böyük borclu olmasına baxmayaraq, xaricdən müsbət xalis ilkin gəlir əldə edir (25).

## NƏTİCƏ

Modeldən əldə olunan nəticə göstərir ki, pandemiyadan öncəki müddətdə dünya iqtisadiyyatında sürətli artım müşahidə olunub. Bunun əsas səbəblərindən biri məhz beynəlxalq ticarətin daha sürətli artması olub. Beynəlxaq ticarətdəki sürətli artım isə öz növbəsində texnoloji inkişafın və ticarətə olan maneələrin azaldılması nəticəsində reallaşmışdır. İnkişaf etməkdə olan bəzi ölkələr ticarətdəki bu artımdan faydalana biliblər. Sənayeləşmiş ölkələrdə qorunub saxlanılan ticarət maneələri isə kənd təsərrüfatı məhsulları və əmək tutumlu istehsal sahələrində mövcud olmuşdur. Araşdırmamız göstərir ki, xarici ticarətin daha da inkişafı yoxsul təbəqəni kəskin yoxsulluqdan çıxarmağına kömək edir, eyni zamanda sənayeləşmiş ölkələrinin özlərinə də fayda verir.

## ƏDƏBİYYAT

1. World Bank, World Development Indicators. https://databank.worldbank.org/source/world-development-indicators
2. World Bank, Globalization, Growth, and Poverty: Facts, Fears, and an Agenda for Action, 2002
3. IMF World Economic Outlook database, and World Bank, World Development Indicators 2022
4. Philip R. Lane and Gian Maria Milesi-Ferretti (2007), "The external wealth of nations mark Revised and extended estimates of foreign assets and liabilities, 1970 –2004", Journal of International Economics 73, November, 223–250
5. UNCTADstat, World Bank, World Development Indicators, and Barro, Lee education database (2011).
6. Mohler, L., Seitz, M. (2012): "The Gains from Variety in the European Union", Review of World Economics, Vol. 148, Issue 3, 475–500
7. Greenaway, D., Kneller, R. (2006): "Firm Heterogeneity, Exporting and Foreign Direct Investment", The Economic Journal, Vol. 117, No. 517, F134–F161; and Pavcnik, N. (2002): "Trade Liberalization, Exit, and Productivity Improvements: Evidence from Chilean Plants", Review of Economic Studies, 69 (1), 245–276
8. United Nations Trade Statistics (before 1950); World Trade Organization (after 1950); IMF, Balance of Payments Statistics (after 1950, services)
9. IMF, Balance of Payments Statistics - https://data.imf.org/?sk=7A51304B-6426-40C0-83DD-CA473CA1FD52
10. IMF BOP stat-istics; IMF, World Economic Outlook Data-base; and Mauro, P., Romeu, R., Binder, A. and Zaman, A. (2013): "A Modern History of Fiscal Prudence and Profligacy," IMF Working Paper No. 13/5
11. IMF and European Commission - https://data.imf.org/?sk=388dfa60-1d26-4ade-b505-a05a558d9a42
12. Bureau of Economic Analysis (BEA), United States Synopsis of results from Ca'Zorzi, M., Hahn, E., Sanche, M. (2007): "Exchange Rate Pass Through in Emerging Markets", ECB Working Paper No. 739, Choudhri, E., Faruquee, H., Hakura, D. (2002): "Explaining the Exchange Rate Pass-Through in Different Prices", IMF Working Paper. WP/02/224, Razafimahefa, I. (2012): "Exchange Rate Pass-Through in Sub-Saharan African Economies and its Determin-ants", IMF Working Paper WP/12/140, Stulz
13. "Exchange Rate Pass-Through in Switzerland: Evidence from VARs", SNB Studies No. 4; and World Bank, World Development Indicators database, 2007
14. Bank of England, World Bank WDI, and Reinhart, C., Rogoff, K. (2010): "From Financial Crash to Debt Crisis," NBER Working Paper 15795, March 2010
15. Samuel L. (2008). The Baku-Tbilisi-Kars Railroad And Its Geopolitical Implications For The South Caucasus. Caucasian Review Of International Affairs. Vol. 2 (4), pp. 212-224.
16. Gourinchas, P., Rey, H. (2013): "External Adjustment"
17. Global Imbalances and Valuation Effects", in: Gopinath, G., et al. (eds.), Handbook of International Economics, Volume IV
18. IMF, World Economic Outlook, May 1997; T.N. Srinivasan and Jagdish Bhagwati, "Outward Orientation and Development: Are the Revisionists Right?", Yale University Economic Growth Center Discussion Paper No. 806, 1999; and Jeffrey Frankel and David Romer, "Does Trade Cause Growth", American Economic Review, June 1999.

19. David Dollar, "Globalization, Inequality, and Poverty since 1980", World Bank mimeo, 2001.
20. David Dollar, "Growth is Good for the Poort" op. cit., 2001.
21. David Dollar and Aart Kraay, "Trade, Growth, and Poverty", World Bank mimeo, 2001.
22. David Dollar, "Globalization, Inequality, and Poverty since 1980", World Bank mimeo, 2001.
23. Steven Matusz and David Tarr, "Adjusting to Trade Policy Reform", World Bank Policy Research Working Paper No. 2142, July 1999.

## EFFECTS OF FOREIGN TRADE ON THE ECONOMIC GROWTH

Vusala JAFAROVA

**SUMMARY**

Trade openness increasing the availability of labor and capital factors of production, thereby leading to higher total factor productivity. Countries that are open to trade tend to have faster rates of potential GDP growth. Foreign trade also involves risks, but overall the benefits of openness outweigh the risks. For this reason, macroeconomic planning should target to maintain external balance without reducing openness, as well as to achieve economic growth by applying policies that increase openness through the regulation of the external sector. The article analyzes five benefits of trade openness - a country's ability to borrow and lend abroad, as well as current account imbalances, either surpluses or deficits. Paper also presents the effects of trade liberalization on economic growth, factors that increase competitiveness of exports and productivity growth.

***Keywords**: economic growth, GDP, export, import, external balance.*

Məqalə redaksiyaya daxil olub: 05.01.2023
Təkrar işlənməyə göndərilib: 02.03.2023
Çapa qəbul olunub: 17.04.2023